# <u>Afaq Şıxlının şeir dünyasına qısaca bir baxış</u>

**İsaxan İsaxanlı**
**Pedaqoji elmlər üzrə fəlsəfə doktoru**

2011-ci ilin avqust ayı idi. Afaq xanımın yenicə işıq üzü görmüş "Səni düşünürəm" adlı şeir kitabının şərəfinə onların bağ evinə yığışmışdıq. Kitaba istedadlı şair Elman Tovuzlunun yazdığı giriş məqaləsini vərəqləyərək "şeir kitablarında ön sözün müəllifi olmaq hamıya nəsib olmur, müəllifi təbrik edirəm", deyə bir cümlə işlətdim və Afaq xanımın əlimdəki kitabı ilə yanaşı, hələ mövcud olmayan gələcək kitabının şərəfinə badə qaldırdım. "Onda o kitabın ön sözünü də sən yazacaqsan" deyə Afaq xanım o xəyali kitabın heç də xəyali olmadığına işarə etdi.

Amma qismət deyilmiş. 2012-ci il may ayında Afaq xanım Bakıya gəlmişdi. Buzovnada, bağ evimizdə qonağımız oldu. Söhbət əsnasında mən ön söz yazacağım kitabla bağlı vəziyyətin necə olduğunu bilmək üçün "Afaq xanım, növbəti kitabı hazırlamırsan ki?", deyə saymazyana soruşdum. Afaq xanım: "Kitab artıq hazırdır, ön sözü də sevimli şairimiz Məmməd İsmayıl yazacaq" dedi. Mən həfifcə gülümsədim və çox əla, Məmməd İsmayıl gözəl şairdir, dedim. Afaq xanım isə, deyəsən, mənim gülümsəməyimin səbəbini anlamadı. Bax beləcə, hansısa bir kitabın ön sözündə yazmalı olduğum və xeyli zaman beynimdə gəzdirdiyim bu fikirləri, Afaq Şıxlının bütövlükdə şeir dünyasına nəzər salmaqla, ayrıca yazıya almaq qərarına gəldim.

Şeir yazanlar çoxdur dünyada. Amma şair olmur hər şeir yazan. Şeir yazan o vaxt şair olur ki, o, oxucularını öz şeirləri ilə yaşadır və özü də oxucularının qəlbində yazdığı şeirləri ilə yaşayır. Bu mənada əsl şairdir Afaq Şıxlı. Çeynənmiş sözləri, fikirləri, mövzuları oxuculara sırımaqla məşğul olmur, ayaqlanmış cığırlarla getmir Afaq Şıxlı. Öz yolu, öz cığırı var poeziya aləmində Afaq Şıxlının. Nədir Afaq Şıxlının uğur açarı? Niyə bu qədər sevilir oxucuları tərəfindən şair? Səbəb sadədir. Bir çoxları kimi adının şair çağırılması üçün yazmır Afaq Şıxlı. Ürəyinə, təbiətinə, varlığına, iç dünyasına yaxın, doğma olan bir işlə məşğul olur, ürəyinin duyduqlarını, qəlbinin hiss etdiklərini yazır,

daxili mənəvi ehtiyacdan güc alır şairin şeirləri. Budur onun şeirlərindəki şirinliyin, həzinliyin, təbiiliyin, doğmalığın, səmimiyyətin və demək ki, oxucu məhəbbətinin canı, mənbəyi.

## Vətən sevgisi, vətən həsrəti

Əsasən vətəndən uzaqda, Rusiyada yazıb-yaradır Afaq Şıxlı. Və təbii olaraq vətən həsrəti havasında köklənib şairin bir sıra şeirləri. Amma elə-belə, "məsafə həsrəti" deyil bu həsrət, vətən sevgisindən süd əmmiş, vətənə məhəbbətdən yoğrulmuşdur şairin vətən həsrətli şeirləri, "vətən bayatıları".

Günəşli bir diyardan soyuq, şaxtalı bir aləmə düşmüş şairin şeirləri də özü kimi üşüyür bu aləmdə. Və üşüdükcə də xəyalən qızınır ana vətəninin isti qucağında:

Günəş yox… Soyuqdur… Havada şaxta…
Əllərim üşüyür, donur ürəyim.
Doğma bir vətən var məndən uzaqda,
O isti qoynuna dönə biləydim…

Darıxır vətənin torpağı, hər daşı, dağı üçün Afaq Şıxlı:

Fikrim qalıb torpağında, daşında,
Yel olaydım dağlarının başında.
Sel gücü var gözlərimin yaşında,
Tükənməzdir ürəyimin dözümü.

## Qarabağ

Deyirlər ki, poeziya elə sevgi deməkdir. Bəli, bu doğrudur. Amma sevgi nə deməkdir? Sevgi deyəndə yalnlz sevdiyin qıza, yaxud oğlana olan məhəbbətmi başa düşülür? Bu "xüsusi sevgi"dən başqa bir "əsl sevgi" də var ki, bu vətənə, torpağa olan sevgidir. Vətənə, torpağa olan sevginin gücünü isə vətən, torpaq dara düşəndə ölçmək

daha asan olur. Böyük Vətən müharibəsi illərində şairlər əsgərə, qələmləri silaha döndü. Əsgəri qələbəyə, lazım gələrsə, vətən yolunda ölməyə səsləyən, çoxsaylı şairlərimiz qələbənin qazanılmasında öz işlərini görmüş oldular. Müharibə mövzusu şairlərin yaradıcılığında xüsusi yer tutdu.

Artıq 20 ildən çoxdur ki, "Qarabağ" adlı bir dərdə düçar olmuşuq. Hələ ki, dərmanını tapa bilmədiyimiz bu dərd təbii mövzuya döndü Afaq Şıxlının poeziyasında da. Şair ədalətin zəfərinə və o günün çöx yaxında olduğuna inanır, o arzu ilə yaşayır:

Qurtarsın qan davası,
Köz bağlasın yarası.
Laçında bir toy vuraq,
Çalaq "Laçın" havası.

Bu yerin suyu qaymaq,
İçdikcə olmur doymaq.
Bu bahar Qarabağı
Gəzəydim oymaq-oymaq!

## <u>Dünya</u>

Afaq Şıxlı poeziyasının əsas xüsusiyyətlərindən bir də onun "Palaza bürünüb, elnən sürünməməsi"ndədir. Afaq Şıxlı hər məsələyə müxtəlif müstəvilərdən baxır, bir obyekti hər mənada fəlsəfi dərk etdikdən sonra onu şeirə çevirir. Poeziyada bir qayda olaraq dünya həmişə fanidir, ona bel bağlamaq olmaz. Afaq Şıxlı isə başqa cür düşünür:

Yazılan qismətlə olmasaq qane
Yaşam uzun olar, səadət ani.
Bəzən aldansaq da, desək də fani,
Ədalətsiz yerə öc alan deyil.

## Nəğməkarlıq

Nəğməkar şairdir Afaq Şıxlı. Nəğmə damır hər şeirindən, hər misrasından Afaq Şıxlının. Heç də təsadüfi deyil ki, onun bir sıra şeirlərinə musiqilər bəstələnmiş, Azərbaycanın tanınmış müğənniləri onun mahnılarını sevə-sevə, fəxrlə ifa edirlər.

## Sevgi

Və sevgi! Bitməz, tükənməz sevgi mövzusu! Acı hicranı, şirin vüsalı ilə! Amma hər poeziyada olmayan bir xüsusiyyət də var Afaq Şıxlının sevgi poeziyasında. Hər cür intiqamdan, hər cür nifrətdən uzaqdır, nə qədər ayrılıqlara, nə qədər ədalətsizliklərə düçar olsa da, hər şeyi unutmağa hazırdır, vüsala çağırır şairin məhəbbəti:

Gəl, yenidən başlayaq yaşamağa, yenidən!
Bizimlə bir doğulsun ayımız, günəşimiz.
Gəl, yenidən başlayaq, sənlə yeni sətirdən
Ağ kağız üzərinə bəxtimizi yazaq biz!

Şair üçün sevgi, məhəbbət mövzusunda yazmaq nə qədər vacibdirsə, əslində kifayət qədər də çətindir. Çeynənmiş fikirləri təkrar etmək, bununla da öz oxucularını məyus etmək təhlükəsi həmişə “gündəmdədir” şair üçün. Amma öz orijinal bənzətmələri ilə hər zaman məlum fikirlər arasına da bir yenilik ruhu gətirməyi bacaran Afaq Şıxlı bu təhlükələrdən kifayət qədər uzaqdadır:

Məni bir də sevərsənmi
ikimizin xatirinə?
İstəmirəm
çoxlarıtək
dönək sevgi qatilinə...

Doğrudan da “sevgi qatili”dir, sevginin qiymətini bilməyənlər. İlahi, nə gözəl bənzətmə! Və ya:

Yağış ətirlisən, Günəş nəfəsli,
Qəlbimdə ötəri naxış deyilsən...
Sən mənim ömrümün Beşinci fəsli,
Nə bahar deyilsən, nə qış deyilsən.

Layla çalır oxucuya, həziz-həzin kövrəlir qəlbi insanın oxuduqca bu misraları.

Dilində “Məni bir də sevərsənmi?!” kimi ülvi bir sual olan saf duyğulu şair əbədi sadiqdir öz məhəbbətinə:

Həsrət əcəl deyil ala canımı...
Heyif ki, sənsiz də yaşayacağam!
Eşqinə həsr edib hər bir anımı,
Adını qəlbimdə daşıyacağam!

Sevginin özü qədər müqəddəsdir sevgidən yazmaq, sevginin özü qədər müqəddəsdir sevgidən yazanlar. Bir şair də əlavə olundu bu müqəddəslər sırasına, bir şair də müqəddəsləşdi sevgidən yaza-yaza.

Müəyyən xəstəlikləri müalicə etmək üçün tibb elmində “musiqi terapiyası” kimi bir metoddan da istifadə edilir. Düşünürəm ki, artıq “şeir terapiyası”, “poeziya terapiyası” kimi metodlar haqqında da düşünməyin vaxtı çatmışdır. Afaq xanım ixtisasca həkimdir, xəstələrin iç dünyasını, bir peşəkar olaraq, yaxşı duya bilir. “Şeir terapiyası” üçün əsl dərmandır, şəfa mənbəyidir Afaq Şıxlının bayatı kimi həzin, qoşma kimi şirin sevgi şeirləri.

Afaq Şıxlının şeirləri xeyli müddətdir ki, mənim işlədiyim Xəzər universitetində dərc olunan “Xəzər Xəbər” jurnalında müntəzəm olaraq çap olunur. Bir dəfə universitet əməkdaşlarından bir nəfər Afaq Şıxlının şeirlərinin çox tez-tes jurnalda çap olunduğunu qeyd edərək bundan narahatsızlığını bildirdi və baş redaktora etirazını bildirəcəyini söylədi. Maraqlıdır ki, müsahibimi narahat edən məqam şeirlərin yaxşı, ya da pis şeirlər olması deyil, sadəcə olaraq bir jurnalda bir müəllifin tez-tez dərc olunması idi. Mən də

burada heç bir başqa bir səbəb olmadığını və bunun əsas səbəbi kimi Afaq Şıxlının şeirlərinin oxucular tərəfindən çox sevildiyini onun diqqətinə çatdırdım və bununla bağlı baş redaktorun müavini, respublikanın tanınmış jurnalisti Əlirza Balayevlə məsləhətləşdim. Əlirza müəllim Afaq Şıxlının şeirlərini çox bəyəndiyini və heç bir problemin olmadığını söylədi. İş elə gətirdi ki, bu arada Afaq xanım heç bir yeni şeir göndərmədi və bir müddət jurnalda Afaq xanımın şeirləri dərc olunmadı (Afaq xanım həmişə şeirlərini redaksiyaya mənim vasitəmlə çatdırırdı). Nəhayət, jurnalın 299-cu sayında çap olunmaq üçün Afaq xanımın Moskvadan göndərdiyi 5 sevgi şeirini redaksiyaya təqdim etdim. Şeirlər dərc olundu. Jurnalın növbəti sayı çapa hazırlanarkən Əlirza Balayev mənə yaxınlaşdı: "İsaxan müəllim, Afaq Şıxlının dərc olunmuş şeirləri şairlər tərəfindən xoş əks-sədalara səbəb olub. Bir sıra peşəkar şairlər mənə telefon edərək Afaq xanımım şeirlərini çox bəyəndiklərini deyirlər. Açığını deyim ki, mən də Afaq xanımın şeirlərini çox bəyənirəm. Onun şeirləri, xüsusən də son zamanlarda təqdim etdiyi sevgi şeirləri doğrudan da gözəl və ləzzətlə oxunan şeirlərdir. Yeni şeirlər yoxdur ki?"

Düşünürəm ki, baş redaktor müavininin gülümsəyərək söylədiyi bu səmimi sözlərindən sonra Afaq Şıxlının şeirləri həmişə sevilə-sevilə oxunduğu kimi, elə sevilə-sevilə də Xəzər Xəbər jurnalında çap olunmağa davam edəcəkdir.

Qəm, kədər insanı ən çox saflaşdıran ülvi hislərdir. Odur ki, bir az kənara çəkilib xatirələrə dalmaq, yalqız qalaraq bir qədər qəmlənmək, kədərlənmək, xəyalən "insafsız sevgi"nin oduna yanmaq və bununla da ilahi bir saflığa qovuşmaq istəyirsinizsə, oxuyun Afaq Şıxlının şeirlərini! Oxuyun!

***Mənbə:***

***"Kredo" qəzeti, № 35 (700), 22 sentyabr 2012-ci il.***